# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 404** **Bakı şəhəri, 3 noyabr 2022-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hakimlərə məzuniyyət haqqının hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 7 dekabr tarixli 468 nömrəli Qərarında dəyişiklik edilməsi və "Hakimlərə müalicə olunmaq üçün pul təminatının verilməsi Qaydasının təsdiq edilməsi barədə" 2001-ci il 27 avqust tarixli 142 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanununun tətbiqi və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 iyul tarixli 1770 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 dekabr tarixli 468 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2052) ilə təsdiq edilmiş "Hakimlərə məzuniyyət haqqının hesablanması Qaydası"nın 3.2.3-cü və 3.2.4-cü yarımbəndləri ləğv edilsin.

**2.** "Hakimlərə müalicə olunmaq üçün pul təminatının verilməsi Qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 27 avqust tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 565; 2002, № 10, maddə 635; 2005, № 5, maddə 455; 2006, № 3, maddə 303; 2017, № 5, maddə 997) ləğv edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının**
**Baş naziri**